**AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 12**

**Bakı şəhəri** **09 oktyabr 2024-cü il**

**"Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2016-cı il 7 sentyabr tarixli 1617050000011400 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 yanvar 2024-cü il tarixli 7s nömrəli Sərəncamının 11-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11.6-cı yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** "Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2016-cı il 7 sentyabr tarixli 1617050000011400 nömrəli Qərarında dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsinin müdiri Tural İsgəndərova tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.

**3.** İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Zamanovaya tapşırılsın ki, bu Qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən (Azərbaycan

Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 5.5-ci bəndi nəzərə alınmaqla) sonra 72 saat müddətində rəsmi dövri mətbu nəşrdə dərc edilməsi və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında, eləcə də qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin internet informasiya ehtiyatında yerləşdirilməsi üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

**4.** Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin müdir müavini Elnur Əliyevə tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.

**5.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiya iclasının protokolu.

**Sədr,**
**İqtisadiyyat naziri** **Mikayıl Cabbarov**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 9 oktyabr tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**“Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2016-cı il 7 sentyabr tarixli 1617050000011400 nömrəli Qərarında dəyişikliklər**

**1.** Həmin Qərarla təsdiq edilmiş “Kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar”da aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci hissə üzrə:

**1.1.1.** 1.3.6-cı yarımbənddə “vergiləri” sözündən sonra “(mənfəət və gəlir vergisi istisna olmaqla)” sözləri əlavə edilsin;

**1.1.2.** 1.3.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“1.3.8. Vergi Məcəlləsinin 169.8-ci və 211.1.1-ci maddələri üzrə vergilərin ödənilməsi istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində vergilər Azərbaycan Respublikasının pul vahidi - manatla hesablanmalı və ödənilməlidir”;

**1.1.3.** 1.3.11-ci yarımbənd üzrə:

**1.1.3.1.** üçüncü cümlə dördüncü cümlə hesab edilsin və həmin yarımbənddə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Xaricdə əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu hallarda, vergi yoxlamaları (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) yoxlamanın keçirilməsi haqqında vergi orqanının qərar qəbul etdiyi tarixdən əvvəlki 5 illik dövrü, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq təyin edilən vergi yoxlamaları üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq olaraq cinayət məsuliyyətinə cəlb etmə müddəti ilə müəyyən edilən dövrü əhatə edir.”;

**1.1.3.2.** dördüncü cümlədən birinci və ikinci halda “haqqına” sözü çıxarılsın, üçüncü halda “haqqına” sözü “haqlarına (bu sığorta haqları ilə bağlı tətbiq edilmiş maliyyə sanksiyaları və hesablanmış faizlər istisna olmaqla), habelə bu Məcəllənin 38.3.9-cu maddəsində nəzərdə tutulan hallara” sözləri ilə əvəz edilsin;

**1.1.4.** 1.3.12-ci yarımbəndə “38.7.4-cü” sözlərindən sonra “, 38.7.4-1-ci” sözləri əlavə edilsin;

**1.1.5.** 1.3.13-cü yarımbənddə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin yarımbənddə “əmlak vergisi” sözləri “müəssisələrin və fərdi sahibkarların əmlak vergisi, habelə müəssisələrin torpaq vergisi” sözləri əlavə edilsin;

**1.2.** 8-ci hissə üzrə:

**1.2.1.** 8.1.3-cü yarımbəndə “fəaliyyətini” sözündən sonra “müvəqqəti” sözü əlavə edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Vergi ilində fəaliyyətini müvəqqəti dayandıran vergi ödəyicisi həmin vergi ilində fəaliyyətini təkrar bərpa edərsə, Vergi Məcəlləsinin 149.2-ci maddəsində göstərilən müddətdə vergi orqanına dəqiqləşdirilmiş bəyannamə təqdim etməlidir.”;

**1.2.2.** aşağıdakı məzmunda 8.1.3-1-ci yarımbənd əlavə edilsin:

“8.1.3-1. Gəlir vergisi ödəyicisi olmayan vergi ödəyicisinin ƏDV qeydiyyatı Vergi Məcəlləsinin 157.3.3-cü maddəsinə uyğun olaraq keçmiş tarixlə aparıldıqda, vergi ödəyicisi qeydiyyat bildirişinin verildiyi tarixdən etibarən 90 gün müddətində bəyannaməni vergi orqanına təqdim etməyə borcludur.”;

**1.2.3.** aşağıdakı məzmunda 8.1.6.19-1-ci yarımbənd əlavə edilsin:

“8.1.6.19-1. “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununun 3.5-ci maddəsində göstərilən mallar, habelə daşınmaz əmlak, avtomobil nəqliyyatı vasitələri və daşınar əsas vəsaitlər istisna olmaqla, digər malların vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alış aktı əsasında alınması və ya malların vergi ödəyicilərindən Vergi Məcəlləsinin 50.8-ci maddəsinin tələblərinə cavab verən nəzarət kassa aparatının çeki əsasında alınması üzrə gəlirdən çıxılan xərclərin yuxarı həddinin vergi ödəyicisinin hər il üçün gəlirlərinin və xərclərinin ən yüksəyinin hər bir hal üzrə 2 faizi həddindən çox olub-olmamasının araşdırılması;”;

**1.2.4.** 8.2.3-cü yarımbəndə “fəaliyyətini” sözündən sonra “müvəqqəti” sözü əlavə edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Vergi ilində fəaliyyətini müvəqqəti dayandıran vergi ödəyicisi həmin vergi ilində fəaliyyətini təkrar bərpa edərsə, Vergi Məcəlləsinin 149.2-ci maddəsində göstərilən müddətdə vergi orqanına dəqiqləşdirilmiş bəyannamə təqdim etməlidir.”;

**1.2.5.** aşağıdakı məzmunda 8.2.4-1-ci yarımbənd əlavə edilsin:

“8.2.4-1. Mənfəət vergisi ödəyicisi olmayan vergi ödəyicisinin ƏDV qeydiyyatı Vergi Məcəlləsinin 157.3.3-cü maddəsinə uyğun olaraq keçmiş tarixlə aparıldıqda, vergi ödəyicisi qeydiyyat bildirişinin verildiyi tarixdən etibarən 90 gün müddətində bəyannaməni vergi orqanına təqdim etməyə borcludur.”;

**1.2.6.** aşağıdakı məzmunda 8.2.7.20-1-ci yarımbənd əlavə edilsin:

“8.2.7.20-1. “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununun 3.5-ci maddəsində göstərilən mallar, habelə daşınmaz əmlak, avtomobil nəqliyyatı vasitələri və daşınar əsas vəsaitlər istisna olmaqla, digər malların vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alış aktı əsasında alınması və ya malların vergi ödəyicilərindən Vergi Məcəlləsinin 50.8-ci maddəsinin tələblərinə cavab verən nəzarət kassa aparatının çeki əsasında alınması üzrə gəlirdən çıxılan xərclərin yuxarı həddinin vergi ödəyicisinin hər il üçün gəlirlərinin və xərclərinin ən yüksəyinin hər bir hal üzrə 2 faizi həddindən çox olub-olmamasının araşdırılması;”;

**1.2.7.** 8.2.7.37-ci yarımbəndə “o cümlədən” sözlərindən sonra “məktəbəqədər təhsil müəssisələrinin və” sözləri əlavə edilsin;

**1.2.8.** aşağıdakı məzmunda 8.3.1-1-ci yarımbənd əlavə edilsin:

“8.3.1-1. Vergi Məcəlləsinin 175.12-ci maddəsinin müddəalarından asılı olmayaraq idxal edilmiş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri idxal etdikləri kənd təsərrüfatı məhsullarına görə ödənilmiş ƏDV-ni əvəzləşdirmək və həmin məhsulların təqdim edilməsi zamanı ƏDV-ni əməliyyatın tam dəyərindən hesablamaq hüququna malikdirlər. Bu məqsədlə həmin şəxslər öz seçimləri barədə 2024-cü il yanvarın 1-dən kənd təsərrüfatı məhsullarını idxal edəcəkləri tarixədək məlumat formasını uçotda olduğu vergi orqanına təqdim etməlidirlər. Vergi ödəyicisi məlumat formasını qeyd edilən müddətdə təqdim etmədikdə Vergi Məcəlləsinin 175.12-ci maddəsinin müddəaları tətbiq olunur və vergi ödəyicisinin seçimi il ərzində dəyişdirilmir.”;

**1.2.9.** 8.3.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.3.8. Vergi Məcəlləsinin 156.1-1-ci maddəsinə əsasən həmin Məcəllənin 218.4.1-ci maddəsində nəzərdə tutulan, göstərilən xidmətlərin dəyərini nağdsız qaydada əldə edən şəxslər (taksi fəaliyyəti göstərən şəxslər istisna olmaqla) ƏDV-nin məqsədləri üçün qeydiyyat haqqında könüllü ərizə verə bilər.”;

**1.2.10.** 8.3.12.3-cü yarımbənddə “və (və ya) riskli əməliyyatların rəsmiləşdirildiyi” sözləri “əməliyyatlar çərçivəsində əldə edilmiş” sözləri ilə əvəz edilsin;

**1.2.11.** 8.3.12.18-cü yarımbənddə “maddəsində” (birinci halda) sözü “və 119.2-ci maddələrində” sözləri ilə əvəz edilsin;

**1.2.12.** 8.4.2-ci yarımbəndin ikinci cümləsində “ödənilməli və bu müddət ərzində vergi tutulan əməliyyatları göstərməklə bəyannamə verilməlidir” sözləri “ödənilməlidir” sözü ilə əvəz edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Vergi Məcəlləsinin 190.1.1 - 190.1.3-cü maddələrində göstərilən aksizli mallar Azərbaycan Respublikasının ərazisində istehsal və ya ölkəyə idxal edildikdə aksizlər həmin mallar üçün məcburi nişanın alındığı vaxt ödənilir.”;

**1.2.13.** aşağıdakı məzmunda 8.4.2-1-ci yarımbənd əlavə edilsin:

“8.4.2-1. Vergi ödəyicisi Vergi Məcəlləsinin 191.1-ci və 191.3-1-ci (idxal əməliyyatları istisna olmaqla) maddələrində göstərilən hallarda hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, hesabat dövrü ərzində vergi tutulan əməliyyatlarını göstərməklə bəyannamə verməlidir.”;

**1.2.14.** 8.4.3.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.4.3.2.1. “Hissə 1” – “Hesabat dövründəki aksizlərin, o cümlədən icbari tibbi sığorta haqqının hesablanması” bölməsində tütün məmulatları və onların əvəzediciləri, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri, elektron siqaretlər üçün maye, içməli spirt, pivə (alkoqolsuz pivə istisna olmaqla) və spirtli içkilərin bütün növləri, energetik içkilər, neft məhsulları, minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla), avtobuslar (sıxılmış qazla işləyən avtobuslar istisna olmaqla), dövlət qeydiyyatına alınmalı olan motosikletlər, istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr, idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, idxal olunan xəz-dəri məmulatları üzrə istehsal həcmləri, aksiz məbləğləri və icbari tibbi sığorta haqları barədə məlumatları özündə əks etdirir;”

**1.2.15.** 8.4.3.2.3-cü yarımbənddə “azaldılması” sözündən sonra “, aksizli malların istehsalçısı olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə onların sahibliyində aktivləşdirilməmiş və aksiz dərəcələrində azalma olduqda, məcburi nişan alarkən vergini yuxarı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə ödənilmiş aksiz məbləğlərinin azaldılması və aksiz dərəcələrində artım olduqda, məcburi nişan alarkən vergini yuxarı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi

tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə ödənilmiş aksiz məbləğlərinin hesablanması” sözləri əlavə edilsin.

**1.2.16.** 8.4.3.3.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.4.3.3.3. “Əlavə 3” - İçməli spirt, pivə (alkoqolsuz pivə istisna olmaqla) və spirtli içkilərin bütün növləri, energetik içkilər, tütün məmulatları, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri üzrə vergi tutulan əməliyyatın həcmi, aksizlərin, o cümlədən icbari tibbi sığorta haqqının hesablanması barədə məlumatları özündə əks etdirir;”;

**1.2.17.** 8.6.3-cü yarımbənddə “mayın 15-dən” sözləri “hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən” sözləri ilə, “hesablamaları” sözü “bəyannaməni” sözü ilə əvəz edilsin;

**1.2.18.** aşağıdakı məzmunda 8.6.3-1-ci və 8.9.1-1-ci yarımbəndlər əlavə edilsin:

“8.6.3-1. Hüquqi şəxs və ya qeyri-rezident hüquqi şəxsin daimi nümayəndəliyi ləğv edildikdə ləğvetmə balansını qeydiyyat orqanına təqdim etdiyi tarixdən 30 gün müddətində torpaq vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.”;

“8.9.1-1. Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər həmin maddədə müəyyən edilmiş hüquqdan istifadə etdikdə ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatı keçdiyi aydan sonrakı ayın 1-dən etibarən 10 gün ərzində fəaliyyətlərini sadələşdirilmiş vergi ödəyicisi kimi davam etdirəcəkləri barədə vergi orqanına yazılı formada ərizə təqdim etməlidirlər.”;

**1.2.19.** 8.9.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.9.2.1. Vergi Məcəlləsinin 156-cı maddəsinin müddəaları nəzərə alınmaqla, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslər;”;

**1.2.20.** 8.11.1-ci yarımbənddə “Aşağıdakı” sözü “Vergi orqanında uçotda olan aşağıdakı” sözləri ilə əvəz edilsin;

**1.2.21.** 8.11.1.1-ci və 8.11.1.4-cü yarımbəndlərdə “və ya sahibkarlar” sözləri “,sahibkarlar və qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər” sözləri ilə əvəz edilsin;

**1.2.22.** 8.11.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.11.1.3. Fiziki şəxslərə və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxslərə faizlər ödəyən hüquqi şəxslər, sahibkarlar və qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər;

**1.2.23.** 8.11.1.5-ci yarımbənddə “və ya fərdi sahibkarlar” sözləri “,sahibkarlar və qeyri-sahibkarlıq fəaliyyətindən gəlir əldə edən fiziki şəxslər” sözləri ilə əvəz edilsin;

**1.2.24.** 8.11.1.10-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.11.1.11-ci yarımbənd əlavə edilsin:

“8.11.1.11. “Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiya təşkilatları ilə bağlanmış mülki-hüquqi müqavilələr əsasında fəaliyyət göstərən mediatorlar tərəfindən göstərilən mediasiya fəaliyyəti ilə bağlı mediatorlara ödənişi həyata keçirən mediasiya təşkilatı.”;

**1.2.25.** 8.20.1-ci yarımbəndin ikinci cümləsində “10” rəqəmləri “13” rəqəmləri ilə əvəz edilsin;

**1.2.26.** 8.21-ci bənddə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə “gəlir” sözündən sonra “,əmlak və torpaq” sözləri əlavə edilsin;

**1.2.27.** aşağıdakı məzmunda 8.21.1-1-ci və 8.21.1-2-ci yarımbəndlər əlavə edilisin:

“8.21.1-1. Müəssisələr və fərdi sahibkarlar cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin məbləğinin 20 faizi həcmində vergi ödəyir. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər və fərdi sahibkarlar əsas vəsaitlərin əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər.

8.21.1-2. Müəssisələr tərəfindən torpaq vergisi üzrə cari vergi ödənişləri 15 avqust və 15 noyabr tarixlərindən gec olmayaraq bərabər məbləğlərdə ödənilir. Hər ödəmənin məbləği əvvəlki vergi ilində hesablanmış vergi məbləğinin 1/2 hissəsini təşkil edir. Əvvəlki hesabat ilində torpaq vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və torpaq vergisi ödəyicisi olan müəssisələr torpaq sahələrini əldə etdikdən (o cümlədən dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqdan) sonra bu maddədə müəyyən olunmuş müddətlərdən gec olmayaraq hər ödəniş üzrə həmin torpaq sahələrinə görə hesablanmalı olan illik torpaq vergisi məbləğinin 50 faizi miqdarında cari vergi ödənişlərini yerinə yetirirlər.”;

**1.2.28.** 8.21.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“8.21.2. Vergi ödəyicisi mənfəət və gəlir vergisi üzrə cari vergi ödəmələrinin məbləğini bu rübdəki vergiyə cəlb olunan gəlirinin (xərclər

nəzərə alınmadan) həcmini onun keçən ilin vergiyə cəlb olunan gəlirində (xərclər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirə bilər.";

**1.2.29.** 8.21.3-cü yarımbənddə hər dörd halda "cari" sözündən əvvəl "mənfəət və gəlir vergisi üzrə" sözləri əlavə edilsin;

**1.2.30.** 8.21.4.1-ci yarımbəndə "yekunla" sözündən sonra "(əvvəlki illərdə yaranmış zərər məbləğləri vergi tutulan mənfəətdən (gəlirdən) çıxılmaqla)" sözləri əlavə edilsin;

**1.2.31.** aşağıdakı məzmunda 8.21.4.5-1-ci, 8.21.4-1 – 8.21.4-3-cü yarımbəndlər əlavə edilsin:

"8.21.4.5-1. Cari vergi ödəmələri Vergi Məcəlləsində nəzərdə tutulan güzəşt və azadolmalar nəzərə alınmaqla hesablanır və hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir.";

"8.21.4-1. Torpaq vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Torpaq vergisi üzrə cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.

8.21.4-2. Vergi ödəyicisinin hesabat dövründə torpaq sahəsinə mülkiyyət hüququ, habelə dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlardan icarə və ya digər əsaslarla istifadə hüququ yarandıqda və ya bu hüquqa xitam verildikdə, həmin torpaq sahəsinə münasibətdə vergi məbləğinin hesablanması bu torpaq sahəsinin vergi ödəyicisinin mülkiyyətinə (icarə və ya digər əsaslarla istifadəsinə) keçdiyi aydan sonrakı aydan etibarən mülkiyyətində (icarə və ya digər əsaslarla istifadəsində) olduğu ayların sayına mütənasib olaraq aparılır.

8.21.4-3. Əmlak vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Əmlak vergisi üzrə cari vergi ödəmələri hesabat ili başa çatdıqdan sonra yenidən haqq-hesab edilir və bu zaman hesablanmış cari vergi məbləği hesabat üzrə vergi məbləğindən çox olduğu halda artıq hesablanmış cari vergi və ona uyğun faiz məbləğləri azaldılır.";

**1.2.32.** 8.21.5.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.21.5.2. "Cari vergi ödəmələrinin hesablanması" bölməsində Vergi Məcəlləsinin 151.2-ci maddəsi üzrə əvvəlki hesabat ilində vergiyə cəlb olunan (xərclər nəzərə alınmadan) gəlir, hesablanmış mənfəət (gəlir) vergisi, mənfəət (gəlir) vergisinin ümumi gəlirdə xüsusi çəkisi, cari rübdəki vergiyə cəlb olunan (xərclər nəzərə alınmadan) gəlirin həcmi, cari rübdəki güzəşt edilən və

azadolunan mənfəət (gəlir) məbləği, cari vergi ödəməsinin həcmi, azaldılmalı vergi məbləği nəzərə alınmaqla ödənilməli cari vergi ödəməsinin həcmi, Vergi Məcəlləsinin 151.5-ci maddəsi üzrə hesabat ili üzrə artan yekunla gəlirlərin həcmi, o cümlədən hesabat ili üzrə artan yekunla güzəşt edilən və azadolunan gəlirin həcmi, hesabat ili üzrə artan yekunla xərclərin həcmi, o cümlədən hesabat ili üzrə artan yekunla vergidən azad olunan və ya vergiyə cəlb edilməyən fəaliyyətlə bağlı bölüşdürülməsi mümkün olmayan xərclərin gəlirdən çıxılmayan məbləğlərinin cəmi, hesabat ili üzrə artan yekunla vergiyə cəlb olunan mənfəətin (gəlirin) həcmi, hesabat ili üzrə artan yekunla güzəşt edilən və azadolunan mənfəətin (gəlirin) həcmi, mənfəət (gəlir) üzrə kompensasiya edilməli keçmiş illərin zərəri, cari vergi ödəməsinin həcmi və azaldılmalı vergi məbləği nəzərə alınmaqla ödənilməli cari vergi ödəməsinin həcmi barədə məlumatlar əks olunur.";

**1.3.** 9-cu hissə üzrə:

**1.3.1.** 9.2-ci bəndə "verginin" sözündən sonra "(mənfəət və gəlir vergisi istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.3.2.** 9.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.3. Vergi ödəyicisi tərəfindən vergiyə cəlb edilən gəlirlər rəsmiləşdirilmədikdə, lakin gəlirdən çıxılan xərclərə dair əlaqəli məlumatlar mövcud olduqda vergi tutulan mənfəət (gəlir) 50 faiz həcmində rentabellik nəzərə alınmaqla hesablanır. Vergiyə cəlb edilən mənfəət (gəlir) müəyyən edilərkən sənədlərlə rəsmiləşdirilən faktiki mənfəət (gəlir) 1 yanvar 2025-ci il tarixədək rentabellik səviyyəsi 50 faizdən çox olmayaraq müəyyən edilir. Bu müddətdən sonra vergi tutulan mənfəət (gəlir) sənədlərlə rəsmiləşdirilən faktiki gəlirlər və xərclər əsasında müəyyən edilir.";

**1.3.3.** 9.9-cu bənd ləğv edilsin.

**2.** həmin Qərarla təsdiq edilmiş "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 5-ci hissə üzrə:

**2.1.1.** 5.0.2-ci yarımbənddən "habelə" sözü çıxarılsın və həmin yarımbəndə "məlumatlara" sözündən sonra ", habelə kommunal və rabitə xidmətləri göstərən vergi ödəyiciləri tərəfindən abunəçilər üzrə göstərilən və vergilərin hesablanmasına əsas verən xidmətlərin müddəti, həcmi, dəyəri, ödənişləri və digər iqtisadi göstəricilərini hesablayan və özündə əks etdirən, digər xidmət təminatçıları ilə qarşılıqlı hesablaşmaların aparılması üçün məlumatları saxlayan sistemlərə" sözləri əlavə edilsin;

**2.1.2.** 5.0.14-2-ci yarımbənddə "2020-ci il 28 iyul tarixli 265 nömrəli Qərarı ilə təsdiq edilmiş "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların

Meyarları"na cavab verən, eləcə də əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparması" sözləri "təsdiq etdiyi risk meyarlarına cavab verdiyi" sözləri ilə, "ödəyicisi olması" sözləri "ödəyicilərinin siyahısına daxil edilməsi" sözləri ilə əvəz edilsin;

**2.2.** 7-ci hissə üzrə:

**2.2.1.** 7.3-1-ci bəndə "haqlarına" sözündən sonra "(bu sığorta haqları ilə bağlı tətbiq edilmiş maliyyə sanksiyaları və hesablanmış faizlər istisna olmaqla)" sözləri əlavə edilsin;

**2.2.2.** 7.5-1.3-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.5-1.4-cü yarımbənd verilsin:

"7.5-1.4. mənfəət, gəlir, əmlak və torpaq vergilərinin biri və ya bir neçəsi üzrə vergi hesabatının təqdim edilməsi müddəti səyyar vergi yoxlamasının davam etdiyi müddətdə başa çatdıqda.";

**2.3.** 25-1.2.1-ci yarımbəndə "məlumatlara" sözündən sonra ", habelə kommunal və rabitə xidmətləri göstərən vergi ödəyiciləri tərəfindən abunəçilər üzrə göstərilən və vergilərin hesablanmasına əsas verən xidmətlərin müddəti, həcmi, dəyəri, ödənişləri və digər iqtisadi göstəricilərini hesablayan və özündə əks etdirən, digər xidmət təminatçıları ilə qarşılıqlı hesablaşmaların aparılması üçün məlumatları saxlayan sistemlərə" sözləri əlavə edilsin;

**2.4.** 26-cı hissə üzrə:

**2.4.1.** 26.1.14-cü yarımbənddən "analoji müəssisələrin gəlirlərinə," sözləri çıxarılsın;

**2.4.2.** 26.1.17-ci yarımbəndə "gəlir" sözündən sonra ", habelə birgə fəaliyyətdən əldə olunan birgə mənfəətin (xərclər çıxılmaqla gəlirin) bölüşdürülməsi vəziyyəti" sözləri əlavə edilsin;

**2.5.** 27-ci hissə üzrə:

**2.5.1.** 27.1.7-2-ci yarımbənddə "olmaqla" sözündən sonra ", eləcə də Vergi Məcəlləsinin 109.8-ci maddəsinin tələbləri nəzərə alınmaqla" sözləri əlavə edilsin;

**2.5.2.** aşağıdakı məzmunda 27.1.7-3-cü yarımbənd əlavə edilsin:

"27.1.7-3. Vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alış aktı (elektron alış aktı) əsasında alınan malların dəyərinin xərclərə aid edilmə vəziyyətinin Vergi Məcəlləsinin 109.8-ci maddəsinin tələblərinə uyğunluğu;";

**2.5.3.** 27.1.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"27.1.8. sahibkarlıq fəaliyyəti əyləncə və ya sosial xarakter daşıyan vergi ödəyicisinin bu cür fəaliyyət çərçivəsində çəkdiyi xərclər, habelə Vergi Məcəlləsinin 119.2-ci maddəsində nəzərdə tutulmuş xərclər istisna olmaqla,

işçilərin və onların ailə üzvlərinin sosial xarakterli xərclərinin və əyləncə xərclərinin gəlirdən çıxılmaması;";

**2.5.4.** aşağıdakı məzmunda 27.1.69-4-cü yarımbənd əlavə edilsin:

"27.1.69-4. Gəlirdən çıxılan xərclərin qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməsi vəziyyəti (qanunla müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən xərclərin gəlirdən çıxılmasına yol verilmir);";

**2.6.** 29.1.17-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 29.1.18-ci yarımbənd əlavə edilsin:

"29.1.18. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiya təşkilatları ilə bağlanmış mülki-hüquqi müqavilələr əsasında fəaliyyət göstərən mediatorlar tərəfindən göstərilən mediasiya xidməti ilə bağlı mediatorlara ödənişi həyata keçirən mediasiya təşkilatı tərəfindən vergitutma obyektinin düzgün müəyyən edilməsi.";

**2.7.** 31.1.9-cu yarımbəndə "markalarının" sözündən sonra "və Vergi Məcəlləsinin 190.1.1–190.1.3-cü maddələrində göstərilən aksizli mallar üçün məcburi nişanların" sözləri əlavə edilsin;

**2.8.** 36-cı hissə üzrə:

**2.8.1.** 36.1.8-ci yarımbənddən birinci halda "sərnişin" sözündən sonra "və yük" sözləri, "beynəlxalq" sözündən sonra "yük və" sözləri çıxarılsın;

**2.8.2.** 36.1.15-ci yarımbəndə "nişanlarının" sözündən sonra "(yük daşımalarını həyata keçirən vergi ödəyiciləri istisna olmaqla)"sözləri əlavə edilsin;

**2.9.** 43.1.15-ci yarımbənddə "əyləncə və yemək xərclərinin, habelə mənzil və ya digər sosial xarakterli" sözləri "Vergi Məcəlləsinin 109.3-cü və 119.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**2.10.** 52.1-ci bənddə "gün" sözü "iş günü" sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şikayət üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün 30 iş günündən artıq müddət tələb olunduğu hallarda şikayətə baxılması müddəti vergi orqanı tərəfindən bir dəfə 30 iş günü müddətində uzadıla bilər. Müddətin uzadılması barədə şikayət vermiş şəxsə 3 iş günü ərzində məlumat verilir.";

**2.11.** "Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları"na 24 nömrəli əlavəyə yeni məzmunda 2.10-4-cü və 2.22-1-ci bəndlər əlavə edilsin:

"2.10-4. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57.8-ci maddəsində nəzərdə tutulmuş hüquqpozuntuları barədə məlumat:

Qeyd .........................................................................................";

"2.22-1. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 58.15-1-ci maddəsində nəzərdə tutulmuş hüquqpozuntuları barədə məlumat:

Qeyd .........................................................................................”.